*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  9 dekabr 2015-ci il  № 94 (2010)  Qiyməti 25 qəpik

## Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 1998-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1981-1997-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2016-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2016-cı il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 dekabr 2015-ci il.

# Müasir Azərbaycan ümummilli liderimizin şah əsəridir

***Müxtəlif xalqların tarixində elə şəxsiyyətlər olub ki, onlar ictimai-siyasi proseslərə təsir etmək gücünə malik olan irimiqyaslı islahatlara imza atıblar. Azərbaycan xalqının taleyində də mühüm yer tutan belə şəxsiyyət məhz ümummilli liderimiz Heydər Əliyev olub. Zəngin dövlətçilik təcrübəsinə malik olan dahi rəhbərimiz ötən əsrin iki fərqli dövründə - həm Sovet məkanında, həm də müstəqillik dönəmində Azərbaycanın mövcudluğunda xüsusi əhəmiyyət kəsb edən islahatlara imza atıb. Məhz bu baxımdan qeyd etməliyəm ki, müasir dövlətçiliyimizin formalaşmasında böyük öndər Heydər Əliyevin misilsiz xidmətləri olub.***



Gəlin, tariximizin Sovet dönəmini, daha dəqiq desəm, 1969-cu ildən başlanan dövrünü xatırlayaq. Həmin dövrə qədər Azərbaycan keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri idi. Amma 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi postuna təyin edilən Heydər Əliyev qısa bir zaman kəsiyində ucqar milli respublikanın hərtərəfli inkişaf strategiyasını hazırladı və bir-birinin ardınca həlledici uğurlara nail oldu. Təcrübəli dövlət rəhbərinin düşünülmüş siyasəti nəticəsində Azərbaycan hər şeydən əvvəl öz iqtisadi potensialını yaratmağa imkan tapdı. Respublikamız ittifaqın inkişaf etməkdə olan sənaye və aqrar bölgələrindən birinə çevrildi. Minlərlə vətəndaşımızın işlə təmin edilməsinə imkan verən iri sənaye müəssisələri yaradıldı. Nəinki paytaxt Bakı, həmçinin, gənclər şəhəri hesab edilən Sumqayıt, Gəncə, Mingəçevir kimi şəhərlərimiz, sözün həqiqi mənasında, sənaye mərkəzlərinə çevrildi. Həmin dövrün müasiri olan insanlar haqlı olaraq Heydər Əliyevin birinci siyasi hakimiyyət dönəmini Azərbaycanın dirçəliş dövrü adlandırırlar.

Heç kimə sirr deyil ki, tarixin müxtəlif dövrlərində imperiya rəhbərləri Azərbaycanda hərbi ənənələrin inkişaf etməsinə, azərbaycanlı generalların yetişməsinə imkan verməyiblər. Ümummilli liderimiz hələ Sovetlər dövründə bu narahatlığı dərindən hiss edirdi və gənc nəslin hərbə marağını gücləndirmək üçün müxtəlif yollar axtarırdı. Bu baxımdan, ötən əsrin 70-ci illərində Azərbaycanda görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan ibtidai hərbi məktəbin yaradılması dahi rəhbərin uzaqgörənliyinin və siyasi qətiyyətinin nəticəsi kimi dəyərləndirilir. Şübhəsiz, böyüməkdə olan nəsillərin hərbi peşələrə həvəsləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edən bu addım mərkəzdə qısqanclıqla qarşılanmaya bilməzdi. Amma qətiyyətli rəhbər olan Heydər Əliyev bu hərbi təhsil ocağını yaratmaqla tarixi uğurlarımızdan birinə imza atdı. Təsadüfi deyil ki, C.Naxçıvanski adına Hərbi Liseyin yaradılmasının ildönümü mərasimində iştirak edən görkəmli dövlət xadimi zalda əyləşən generallara, zabitlərə və yeniyetmə naxçıvanskilərə baxıb demişdi: "Mən öz əlimlə yaratdığım bu təhsil ocağının yetirmələrinə baxanda özümü xoşbəxt sanıram, elə bilirəm ki, mənim öz övladlarım burada əyləşiblər". Azərbaycan ilk müstəqillik illərində öz ordusunu yaratmaq zərurəti ilə üzləşəndə bir daha böyük öndərin bu məktəbi yaratmaqla necə uzaqgörənlik nümayiş etdirməsinin şahidi olursan. Doğrudan da, hərbi məktəbin yetirmələri sonrakı dövrdə Azərbaycanın ordu quruculuğunda böyük rol oynadılar, torpaqlarımızın erməni işğalçılarından qorunması uğrunda mübarizədə canlarını belə əsirgəmədilər. Qəhrəman oğullarımız sırasında naxçıvanskilərin də sayı az olmayıb. Hərbi Liseyin onlarla, yüzlərlə yetirməsi müharibə cəbhələrində göstərdikləri fədakarlıqlarına görə dövlətin yüksək fəxri adına, orden və medallarına layiq görülüb. İftixarla qeyd etməyə dəyər ki, Heydər Əliyev Məktəbinin yetirmələri olan generallar, yüksək rütbəli zabitlər və tanınmış hərb xadimləri bu gün də ölkəmizin müdafiə qüdrətinin güclənməsi naminə öz töhfələrini əsirgəmirlər.

**(Ardı 2-ci səhifədə)**

## Hikmət Hacıyev: Ermənistan təxribat əməlləri ilə cəbhədə vəziyyəti qəsdən gərginləşdirir

***Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev cəbhə xəttində yaranmış son vəziyyətlə əlaqədar kütləvi informasiya vasitələrinə açıqlama verib.***

H.Hacıyev deyib ki, Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, son günlər ərzində Ermənistan və Azərbaycan silahlı qüvvələrinin təmas xətti və iki ölkənin sərhədi boyunca Ermənistan tərəfindən təxribat-diversiya əməllərinin törədilməsi, iriçaplı silahlar, minaatan, qumbaraatan və digər ağır atəş vasitələri tətbiq edilməklə atəşkəs rejiminin intensiv şəkildə pozulması halları baş verir. Bu, Ermənistan tərəfinin qəsdən törətdiyi məsuliyyətsiz və hərbi avantüra xarakterli əməllərin nəticəsidir.

Belqradda ATƏT-in 22-ci Nazirlər Şurasının iclasının keçirildiyi, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşlərinin təşkil olunduğu, Minsk qrupu həmsədrlərinin münaqişənin həlli ilə əlaqədar xarici işlər nazirləri səviyyəsində bəyanatla çıxış etdikləri dövrdə Ermənistan bu kimi təxribat əməlləri ilə qəsdən vəziyyəti gərginləşdirərək hər vəchlə danışıqlar prosesini pozmaq, münaqişənin həllində irəliləyişə nail olunmasına imkan verməmək, qeyri-davamlı və qəbuledilməz olan status-kvonu saxlamaq məqsədi güdür.

Eyni ssenari üzrə rəsmi Yerevan 2014-cü ilin noyabrında Fransa Prezidenti Fransua Ollandın təşəbbüsü ilə Parisdə keçirilmiş Azərbaycan və Ermənistan prezidentlərinin görüşündən dərhal sonra təxribatçı məqsədlərlə Azərbaycanın işğal olunmuş ərazilərində 46 min şəxsi heyətin və 5 mindən artıq texnikanın iştirakı ilə genişmiqyaslı hərbi təlim keçirərək məlum helikopter insidentinin baş verməsinə rəvac verdi.

Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərində mövcudluğu münaqişənin həllinə başlıca maneə olaraq, vəziyyətin gərginləşməsinə və insidentlərin baş verməsinə xidmət edir. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, münaqişənin həllinə nail olmaq və regionda davamlı sülhü bərqərar etmək üçün BMT Təhlükəsizlik Şurasının müvafiq dörd qətnaməsinin tələblərinə uyğun olaraq, ilk növbədə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazilərindən çıxarılması təmin olunmalıdır. Əks təqdirdə, təcavüzkar və işğalçı dövlət kimi yaranmış vəziyyətə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür.

## Səfir Fuad İsgəndərov: ikili standartlar Avropanın özünün də maraqlarına uyğun deyil

Azərbaycanın Belçikadakı səfiri Fuad İsgəndərov "EurActiv" portalına müsahibəsində ölkəmizin Avropa İttifaqı ilə münasibətlərinə dair sualları cavablandırıb.

Jurnalistin Avropa Parlamentinin Azərbaycanla bağlı son qətnaməsindən sonra Avropa İttifaqı ilə münasibətlərin hazırkı vəziyyəti barədə sualını cavablandıran səfir deyib ki, Azərbaycan hətta Avropa Parlamentinin qətnaməsindən əvvəl, Riqa Sammiti zamanı münasibətlərin gələcəyinə dair öz aydın və qəti mövqeyini bildirib. Biz hər iki tərəfin bərabər tərəfdaşlığı və birgə razılaşdırılmış prioritetlərə xidmət edəcək ikitərəfli əməkdaşlıq formatını diqqət mərkəzində saxlamaqda davam edirik.

Avropa Parlamentinin süni səbəblərlə öz birtərəfli qətnamə və bəyanatlarını təkrarlamaqla Azərbaycanı gözdən salmağa cəhd etdiyi bir vaxtda Avropanın siyasi paytaxtı qitənin ən təhlükəli şəhərlərindən birinə çevrilib və kütləvi miqrant axını İkinci Dünya müharibəsindən sonra ən böyük fəlakət kimi qiymətləndirilir. Halbuki Azərbaycan 20 ildən çoxdur ki, qaçqın və məcburi köçkün problemini yaşayır. Azərbaycan hökuməti və parlamenti ölkənin bir milyondan çox qaçqın və məcburi köçkününün mövcudluğuna, iki mindən artıq vətəndaşının terror qurbanı olmasına baxmayaraq, bu və ya digər problemləri Aİ institutlarını gözdən salmaq məqsədilə istifadə etməyib. Əslində, 11 sentyabr faciəsindən sonra olduğu kimi, Azərbaycan terrorizmə qarşı mübarizədə öz siyasi və hərbi iradəsini səfərbər edən ilk ölkələrdəndir. Həmişəki kimi, biz indi də avropalı dostlarımıza kömək etməyə hazırıq.

Səfir vurğulayıb ki, Şərq Tərəfdaşlığının bəzi ölkələri hərbi işğal, etnik təmizləmə və insanların məcburi yerdəyişməsi ilə nəticələnən, xaricdən diktə olunan hərbi münaqişələr və ərazi iddiaları ilə üz-üzədir. Bu münaqişələr suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı xüsusi qeyd olunmaqla, beynəlxalq hüququn fundamental norma və prinsiplərinin, həmçinin, insan hüquqlarının açıq şəkildə pozulmasına gətirib çıxarıb. Avropa Qonşuluq Siyasəti bu prinsiplərə hörmət olunmasını aydın şəkildə əks etdirməlidir. Lakin təəssüflər olsun ki, Avropa Qonşuluq Siyasətinin icrası zamanı bu, baş vermədi. Riqa sammitində gördük ki, birgə sənədlərin hazırlanmasında ikili standartlar yanaşması Avropa Qonşuluq Siyasətinin əməkdaşlıq alətləri və mexanizmləri barədə necə məyusluq, hətta ruh düşkünlüyü yarada bilər. Əgər biz Avropa Qonşuluq Siyasətinin işləyən və etibarlı format olmasını istəyiriksə, sadəcə olaraq, bizə münasibətdə ikili standartlara yer olmamalıdır. İkili standartlar Avropanın özünün də maraqlarına uyğun deyil.

Azərbaycana qarşı çirkin kampaniyada Ermənistanın iştirakı ilə bağlı sualı cavablandırarkən səfir həmin kampaniyanın arxasında bu ölkənin də olduğunu qeyd edib. Lakin o, Ermənistanın heç də müstəqil ölkə olmadığını vurğulayıb. Bildirib ki, əgər Azərbaycan siyasi istiqamətdən daha çox iqtisadi yöndə Avropaya doğru addımlayırsa bu, Ermənistan tərəfindən ciddi təhlükə kimi qiymətləndirilir. Çünki Ermənistan regionda tək qalacaq.

**AZƏRTAC-ın materialları əsasında**

## Hərbi ekspert: erməni lobbisi ilə əməkdaşlıq edən təşkilatın Azərbaycana qərəzli münasibəti təəccüblü deyil

***Beynəlxalq "Transparency International" təşkilatı tərəfindən şübhə doğuran mənbələrə əsaslanaraq hazırlanan məruzədə Azərbaycanın müdafiə sektorunun guya "ən yüksək riskli korrupsiya" ilə üzləşməsinə dair çıxarılan nəticənin heç bir əsası yoxdur. Bu məlumat adı çəkilən qurumun ölkəmizə qarşı qərəzli mövqedə olmasını açıq-aydın əks etdirir.***

Bu fikri hərbi ekspert, keçmiş korpus komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov AZƏRTAC-ın sorğusuna cavab olaraq deyib.

Hərbi ekspert bildirib ki, erməni lobbisi ilə sıx əməkdaşlıq edən və müxtəlif erməni təşkilatlarının maliyyə dəstəyindən məmnuniyyətlə bəhrələnən bir qurumun Azərbaycan haqqında böhtan xarakterli sənəd yayması heç də təəccüblü deyil. Özü korrupsiyaya qurşanmış bir təşkilatın müxtəlif ölkələrdə korrupsiya risklərindən danışması onun və yaydığı sənədin şəffaf və ədalətli olmasını da sübhə altına alır.

Qeyd olunub ki, Azərbaycanda müdafiə sektorunda şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması istiqamətində "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" üzrə tədbirlər həyata keçirilir. İlk növbədə, hər iki planın Azərbaycan Respublikasının Silahlı Qüvvələrində icrasının təmin edilməsi barədə Müdafiə naziri tərəfindən müvafiq əmr verilərək tədbirlər planları təsdiqlənib. Eyni zamanda, görülən işlər barədə Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasına illik hesabatlar təqdim edilir. Bundan əlavə, Müdafiə Nazirliyi öz fəaliyyəti haqqında xəbərləri mütəmadi olaraq, nazirliyin rəsmi internet səhifəsinə yerləşdirməklə ictimaiyyəti ətraflı məlumatlandırır.

"Təəssüf doğuran odur ki, bəzi kütləvi informasiya vasitələri, başda "Azadlıq" qəzeti və saytı olmaqla, bu cür qərəzli məlumatları öz səhifələrində səxavətlə dərc edir, itkilərimizə sevinir, erməni saytlarının məlumatlarını tirajlayır. Reallığı, yəni əldə edilən uğurları isə görmür, ya da onlara sərf etmədiyi üçün görmək istəmirlər.

Xalqın gözü tərəzidir və son illər ictimai təşkilatlardan, vətəndaşlardan, əsgər valideynlərindən daxil olan minnətdarlıqla dolu on minlərlə yazılı müraciət Ali Baş Komandanın rəhbərliyi ilə aparılan uğurlu ordu quruculuğu prosesinin doğru yolla düz istiqamətdə getdiyinin, Azərbaycan Silahlı Qüvvələrinin qüdrətlənməsinə xidmət etdiyinin əyani sübutudur", - deyə Y.Aydəmirov əlavə edib.

# Müdafiə naziri Fransanın ölkəmizdə yeni təyin olunmuş səfiri ilə görüşüb



***Dekabrın 8-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Orelia Buşez ilə görüşüb.***

Azərbaycan ilə Fransa arasında bütün istiqamətlərdə olduğu kimi müdafiə sahəsində də mövcud əməkdaşlığın və qarşılıqlı etimadın güclənməsinə xidmət edən fəaliyyətləri, ölkələrimizin regional təhlükəsizliyə verdiyi töhfələri xüsusi qeyd edən Müdafiə naziri səfirə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Bölgədəki vəziyyətə toxunan nazir bildirib ki, uzun illərdir beynəlxalq qurumların fəaliyyətinə baxmayaraq davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional sabitliyə əsas təhlükə mənbəyidir. "Ermənistanın hərbi-siyasi rəhbərliyi regiondakı mürəkkəb vəziyyətdən öz xeyrinə istifadə etmək niyyətilə son bir neçə gündə cəbhəboyu zonada gərginlik yaratmağa, təxribatlar həyata keçirməyə cəhd göstərir. Azərbaycan əsgərinin vurduğu zərbələrdən qarşı tərəf xeyli itkilər verib, ancaq onlar bunu gizlətməyə çalışır. Erməni xalqı sadəcə olaraq Yerevan rəhbərliyinin girovuna çevrilib", - deyə Müdafiə naziri vurğulayıb.

Səmimi qəbul üçün minnətdarlığını bildirən xanım diplomat ölkələrimiz arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlərin olduğunu vurğulayaraq fəaliyyəti müddətində ikitərəfli əlaqələrin genişləndirilməsi naminə səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə Azərbaycan ilə Fransa arasında əlaqələrin perspektivləri, hərbi, hərbi təhsil və hərbi-texniki əməkdaşlığın genişləndirilməsi, hərbi, eləcə də kosmik sənaye sahəsində texnologiyaların tətbiqi, müdafiə məhsullarını istehsal edən bir sıra şirkətlərlə işbirliyinin genişləndirilməsinə dair konkret məsələlər müzakirə olunub.

Tərəflər müxtəlif ixtisaslar üzrə hərbi mütəxəssislərin hazırlanması, Silahlı Qüvvələrin ekspertləri səviyyəsində təcrübə mübadiləsi, fransız dili kurslarının, işçi görüşlərin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə naziri Rusiyanın ölkəmizdəki səfiri ilə görüşüb

## *Yeni hərbi attaşe təqdim olunub*

***Dekabrın 8-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxin ilə görüşüb.***



Azərbaycan ilə Rusiya arasında hərbi sahədə əməkdaşlığın inkişaf etdirildiyi bildirilərək illik əməkdaşlıq planına əsasən, Müdafiə Nazirlikləri nümayəndə heyətləri arasında keçirilən işçi görüşlərinin, Xəzər dənizində iki ölkənin hərbi gəmilərinin qarşılıqlı səfərləri və təlimlərinin də keçirilməsi qeyd olunub.

Səfir V.Doroxin ölkəsinin Azərbaycana yeni təyin olunmuş hərbi attaşesi polkovnik İqor Lobastovu Müdafiə nazirinə təqdim edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Təlim*

# Qələbəyə təminat

***Əyninə hərbi forma geyinən hər bir kəs müharibəni göz önünə gətirir və bu savaşdan qələbəylə ayrılmağın yollarını arayır, özündə inam formalaşdırmağa çalışır.***



Tez-tez təlimlərdə əsgərlərin görüşündə oluram. Onların hərbi bilikləri necə mənimsədiklərini görəndə fərəhdən qəlbim dağa dönür.

Bu dəfə döyüş təlimi keçən əsgərlərin görüşünə gedəndə komandirlər xəritə üzərində iş aparırdılar. İstənilən an başlayacaq hərbi əməliyyatların ilkin mərhələsi hərbi biliklərin nəzəri öyrənilməsindən başlayır. Birlik komandirinin rəhbərliyi altında birləşmə komandirləri və onların müavinləri şərti olaraq verilmiş ərazidə qüvvələri səfərbər edir, onların hərəkət istiqamətini və bunun üçün nə qədər vaxt sərf olunduğunu, həmçinin, qarşıda duran döyüş tapşırığının uğurla yerinə yetirilməsinin önəmini açıqlayırdılar. Xəritə üzərində keçən təlimə cəlb olunan zabitlər də bu sınağa ciddi hazırlaşıblar.

Bir qədər aralıda isə taktiki təlim zolağı yerləşirdi. Burada da əsgərlər öz döyüş vərdişlərini təkmilləşdirirdi. İlk baxışdan diqqətimi çəkən taktiki zolaqda maneələri keçən əsgərlərin məşqləri necə də bir-birini tamamlayırdı. Əslində əsgərlərin yüksək hazırlığı olmadan hər hansı döyüşdə uğur gözləməyimiz əsassızdır. Ona görə də istənilən anda uğur qazanmağın yolu əsgərin fərdi hazırlığının artırılmasındadır. Qanla yazılmış olduğu döyüş nizamnamələrimiz də bunu təsdiqləyir.

Polkovnik-leytenant Ruslan Ağasiyev yüksək hərbi təcrübəyə malik zabitlərdəndir. Onun hərbi xidmətinin böyük hissəsi cəbhə bölgəsində keçib. Düşmənlə təmas xəttində xidmət etməyin nə qədər ağır və məsuliyyətli olduğunu o, yaxşı bilir. Zabit tabeliyində olan hər kəsin öncə nəzəri biliklərə yiyələnməsinə, sonra isə çöl-səhra təlimlərində yetərincə hərbi vərdişləri mənimsəməsinin vacibliyini bizimlə söhbətində bildirdi. Zabit deyir:

- Başlıca məqsədimiz hərbi bilik və bacarıqları tabeliyimizdə olanlara aşılamaqdı. Qarşıda bizi mühüm vəzifələr gözləyir. Bu istiqamətdə ən məsul vəzifə biz hərbçilərin üzərinə düşür. Ona görə də əsgərlərin fərdi hazırlığına üstünlük veririk.

Zabitin söylədiklərinə görə, taktiki təlim zolağında atıcı silahlardan istifadə etmək üçün bütün şərait yaradılıb. Burada hər bir əsgərin, döyüşçünün yetişməsi üçün hər cür imkan vardır.

Əminliklə qeyd etməliyəm ki, bu gün xəritə üzərində keçən virtual hərbi oyunlar və təlim-atış sahəsində keçirilən hərbi təlimlər gələcək döyüşlərdə qələbənin təminatıdır. Əlbəttə, bu təlimlər bizi uğura aparır. Zəfər yolumuz yalnız belə mükəmməl təlimlərdən keçir.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Müasir Azərbaycan ümummilli liderimizin şah əseridir

(Əvvəli 1-ci səhifədə)

İyirminci əsrin sonlarına yaxın Sovet İttifaqının süqutu ilə nəticələnən tarixi şərait nəticəsində Azərbaycan xalqı da öz müstəqilliyinə qovuşdu. İllərlə azad yaşamaq uğrunda mübarizə aparmış xalqımız ilk müstəqilliyi dövründə, yəni 1918-1920-ci illərdə hansı çətinliklərlə üzləşmişdisə, 70 ildən sonra nail olduğu ikinci müstəqilliyi dönəmində də eyni ssenari təkrar olundu. Güclü himayədarlarına arxalanan Ermənistanın işğalçılıq siyasəti nəticəsində başlanan Qarabağ müharibəsi isə gənc dövlətimizi çətin sınaqlarla üz-üzə qoydu. Dağıdılmış iqtisadiyyatını yaratmağa imkan tapmayan bir xalqın hərbi təcavüzə məruz qalması ilə, doğrudan da, ölkədə çox mürəkkəb şərait yaranmışdı. İkinci bir tərəfdən dövlət rəhbərliyində naşı, təsadüfi adamların təmsil olunması daha ciddi təhlükələrə şərait yaradırdı, cəmiyyətdə anarxiya hökm sürürdü. Belə çətin şərait Azərbaycanın müstəqilliyini ciddi təhlükə qarşısında qoyurdu. Buna görə də xalqımız müdrik dövlət xadiminə - Heydər Əliyevə üz tutdu. Dahi rəhbər ən çətin məqamda xalqının köməyinə yetişdi. Beləliklə, 1993-cü il iyunun 15-də Azərbaycan dövlətçiliyi tarixində əsaslı dönüş baş verdi - müdrik rəhbər Heydər Əliyev yenidən respublikamızda siyasi hakimiyyətə qayıtdı. Əslində həmin gündən başlanan siyasi qayıdış müstəqilliyimizin qorunub saxlanmasında müstəsna rol oynadı.

"Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram", - deyən ulu öndər dövlətçiliyimizi ciddi təhlükələrdən qorumaq üçün əsl rəhbər qətiyyəti ilə islahatlara başladı. Xalqa müraciət edən rəhbər Vətənimizin hərbi təcavüzdən qorunması məsələsini ön plana çəkdi. Bir çağırışla minlərlə, on minlərlə insan ordu sıralarına axışaraq torpaqlarımızın müdafiəsinə atıldı. Döyüşən ordu hissələrində qısa vaxtda vahid komandanlığın və nizam-intizamın yaradılması üçün zəruri tədbirlər görüldü. Orduda şəxsi heyətin döyüş əzmini formalaşdırmaq üçün dövlət başçısı birbaşa ön xəttə yola düşərək burada əsgər və zabitlərlə görüşdü. Hər belə görüş o dövrün müharibə salnaməsini yaşadan insanların sözlərinə görə, döyüşçülərə qələbə əhval-ruhiyyəsi aşılayır və onları düşmən üzərində zəfər qazanmağa ruhlandırırdı.

Qısa zaman ərzində döyüşkən ordunun yaradılmasını qarşısına məqsəd qoyan dövlət xadimi bir sıra hüquqi islahatlara önəm verdi. Vaxtilə bu və ya digər səbəbdən hərbi xidmətdən yayınmış minlərlə gənc müdrik rəhbərin böyük ehtiramı sayəsində bağışlanaraq sağlam cəmiyyətə qaytarıldı. Sonradan onların əksəriyyəti göstərilən inam və etibarı cəbhə xəttində fədakarlıqları ilə doğrultdu. Bir hüquqşünas kimi qeyd etmək istərdim ki, böyük öndərimiz Heydər Əliyev tərəfindən imzalanan amnistiya aktları, həmçinin, digər hüquqi islahatlar xalqın müstəqilliyimizə və dövlətçiliyimizə olan inam hissini artırdı. Artıq Azərbaycan xalqı bütün məsuliyyəti ilə hiss etdi ki, ölkəmiz hüquqi və demokratik dövlət quruculuğu mərhələsinə qədəm qoyub və bu yol müstəqilliyimizə ən mühüm təminatdır.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının ümumxalq referendumu ilə yekdilliklə qəbul edilməsi də böyük öndərin xalqımıza ən layiqli töhfələrindən biridir. 158 maddəsindən 57-nin insan hüquq və azadlıqlarına həsr edilməsi əslində sübut edir ki, dahi rəhbərin təşkilatçılığı və rəhbərliyi ilə hazırlanan Əsas Qanunumuz dünyəvi və demokratik dəyərlər əsasında hazırlanıb. Bu yaxınlarda Konstitusiyamızın qəbul edilməsinin 20-ci ildönümü münasibətilə Azərbaycanın bütün bölgələrində keçirilən tədbirlər də xalqın öz dahi rəhbərinə ehtiramının parlaq təzahürü idi.

Müstəqil dövlətçiliyimizi möhkəmləndirməyi siyasi kursunun başlıca istiqaməti hesab edən ümummilli liderimiz Azərbaycanın davamlı iqtisadi inkişaf strategiyasını və beynəlxalq münasibətlər konsepsiyasını da işləyib hazırladı. Məhz belə həlledici islahatların nəticəsində müstəqil ölkəmizin beynəlxalq səviyyədə nüfuzu artmağa başladı, Azərbaycan mötəbər qurumlarda təmsil olundu və dövlət bayrağımız hüdudlarımızdan kənarda da qürurla dalğalandı.

Bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, Prezident, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin timsalında böyük öndərin ideyalarını yaşadan layiqli lideri vardır.

Dövlət başçımızın rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar Azərbaycanın sürətli inkişafına möhkəm zəmin yaradır. Artıq ölkəmiz əksər beynəlxalq əhəmiyyətli iqtisadi layihələrdə etibarlı tərəfdaşa çevrilib. Bütün bunlar isə deməyə əsas verir ki, ümummilli liderin qeyd etdiyi kimi, Azərbaycanın müstəqilliyi daimi və əbədi olacaqdır.

**Ədliyyə
polkovnik-leytenantı
Vüqar İSAYEV,
Hüquq İdarəsinin
rəis müavini**

# S.Ohanyanın ədəb-ərkandan danışdığı halda qeyri-etik ifadələr işlətməsi çarəsizlikdən başını itirmiş acizin hərəkətinə bənzəyir

***Ermənistanın müdafiə naziri Seyran Ohanyanın cəbhədəki vəziyyətə dair açıqlamasına Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat Xidməti cavab verib. Cavabda deyilir:***

"Ermənilərin cəbhəboyu zonada gərginlik yaratmalarının səbəbini S.Ohanyan özü boynuna alır və bunun ölkəsindəki daxili siyasi, eləcə də regional gərginliklə bağlı olduğunu açıqlayır.

Uşaqların, qadınların, ahılların qətlinə əmr verən, özünün də zövqlə bu qanlı əməllərdə iştirak etməsini bəyan edən caninin heç bir mənəvi haqqı olmadığı halda ədəb-ərkandan, ləyaqətdən danışması S.Ohanyanın döyüş meydanında ləyaqətini itirmiş tərbiyəsizin birisi olmasının göstəricisidir.

Onun açıqlaması əlacsızlıqdan, çarəsizlikdən başını itirmiş birisinin hərəkətinə bənzəyir. Əlində arqumenti olmayan şəxsin açıqlamalar edərkən təhqirə yol verməsi sadəcə acizliyin göstəricisidir. Çünkü ortaya qoyulası ağlabatan bir fakt olmadıqda cılızlar həmişə xainliyə, çığır-bağıra, təhqirə əl atmaq məcburiyyətində qalır.

S.Ohanyanın bu fikirləri psixoloji sarsıntılara məruz qalan xəstə təxəyyülün növbəti məhsulu kimi dəyərləndirilir. Onun Azərbaycana qarşı hədə-qorxu, təhdid dolu növbəti populist çıxışı erməni xalqının fikrini daxildəki, ordudakı ağır vəziyyətdən yayındırmaq məqsədilə atılan addım kimi qiymətləndirmək olar. Cəbhədəki vəziyyətlə bağlı ritorikası da boş danışıq və qeyri-ciddidir".

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Hərbi qulluqçumuz həlak olub

Düşmən tərəfindən açılan atəş nəticəsində Silahlı Qüvvələrimizin zabiti baş leytenant Mollayev Abdulla Molla oğlu ağır yaralanıb.

Yaralı zabit hospitala çatdırılaraq əməliyyat olunub. Ancaq buna baxmayaraq, hərbi qulluqçu vəfat edib.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

### Təhlükəsizlik qaydalarının pozulması nəticəsində əsgər vəfat edib

Təhlükəsizlik qaydalarının pozulması və silahla ehtiyatsız davranma nəticəsində gizir Əhmədov Ceyhun Fəxrəddin oğlu tərəfindən açılan atəşdən əsgər Quliyev Adil Ağababa oğlu vəfat edib.

Hadisə ilə bağlı gizir C.Əhmədov haqqında cinayət işi başlanıb, faktla əlaqədar araşdırma aparılır.

Müdafiə Nazirliyinin rəhbərliyi vəfat etmiş əsgərin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

### Düşmənin hərbi texnikası məhv edilib

Silahlı Qüvvələrimizin bölmələri tərəfindən qoşunların təmas xəttində Ermənistan silahlı qüvvələrinə məxsus sığınacaqda olan hərbi texnika sərrast atəşlə məhv edilib.

### Düşmənin pilotsuz uçan aparatı məhv edilib

Dekabrın 6-da Ermənistan silahlı qüvvələrinə məxsus kiçik ölçülü pilotsuz uçan aparat aşkarlanaraq Hərbi Hava Qüvvələri hava hücumundan müdafiə qoşunlarının bölmələri tərəfindən sərrast atəşlə dərhal məhv edilib.

### Qoşunların təmas xəttində düşmənin təxribat cəhdlərinin qarşısı qətiyyətlə alınıb

Son günlər Silahlı Qüvvələrimizin bölmələrinin fəaliyyəti nəticəsində həm Azərbaycan-Ermənistan dövlət sərhədi, həm də işğal olunmuş ərazilərdəki qoşunların təmas xəttində düşmənin təxribat cəhdlərinin qarşısı qətiyyətlə alınıb.

Ermənistanın işğalçı rəhbərliyinin məqsədyönlü surətdə gərginliyi artırması Azərbaycan tərəfini cavab tədbirləri görməyə məcbur edib.

Sutka ərzində müxtəlif istiqamətlərdə əvvəlcədən müəyyən edilmiş koordinatlar üzrə düşmənin cəmləşdiyi nöqtələrə minaatanlardan vurulan zərbələr nəticəsində erməni tərəfi canlı qüvvə sarıdan onlarla itki verib, onun bir neçə avtomobil texnikası sıradan çıxarılıb.

Ermənistan tərəfi döyüş itkilərinin sayını yenə də azaltmaq üçün, Dağlıq Qarabağdan olan hərbi qulluqçuların, səngərlərə yerləşdirilən mülki əhalinin, eləcə də Yaxın Şərqin müxtəlif qaynar nöqtələrindən gələn muzdluların məhv edilməsi faktlarını gizlədir.

Müdafiə Nazirliyi bir daha bildirir ki, qoşunların təmas xəttində son günlər vəziyyətin daha da gərginləşdirilməsi, düşmənə qarşı tətbiq olunacaq cəza tədbirləri və verəcəyi itkilərə görə bütün məsuliyyət yenə də Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***8 dekabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 82 millimetrlik minaatanlardan, həmçinin, iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 98 dəfə pozub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Qızıloba, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Novruzlu, Şuraabad, Yusifcanlı, Şıxlar, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 104 dəfə atəş zərbəsi endirib.

# "Hərbi jurnalistika sahəsində ilk addımlar atıldı"

## Ekstremal şəraitdə işləyən mətbuat nümayəndələrinə diplom verildi

***Dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 sentyabr 2014-cü il tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" sərəncamından irəli gələn tələblərlə bağlı Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin "Ekstremal şəraitdə fəaliyyət göstərən jurnalistlərin psixoloji hazırlanması və təcrübi öyrədilməsi" adlı birgə layihəsinin bağlanış toplantısı keçirilib.***



Qeyd edim ki, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 1 ay davam edən layihə Azərbaycan Respublikası Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı, Müdafiə Nazirliyinin dəstəyi, Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin, Mətbuat Şurasının və "Dinc Dünya" Araşdırma Mərkəzinin birgə təşkilatçılığı ilə gerçəkləşdi. Yekun toplantıda Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev, Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, BDU-nun jurnalistika fakültəsinin professorları - Cahangir Məmmədli və Şamil Vəliyev də iştirak ediblər.

Mətbuat Şurasının sədri tədbiri açıq elan edərək layihənin həyata keçirilməsində dəstəyi olan hər kəsə, xüsusilə Müdafiə Nazirliyinin rəhbərliyinə, şəxsən Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığını ifadə edərək, əminliklə vurğuladı ki, təlimləri yüksək səviyyədə, uğurla başa vuran jurnalistlər bundan sonra Silahlı Qüvvələrdən informasiya hazırlayarkən kifayət qədər nəzəri-təcrübi bilgilərə malik olacaq və öyrəndiklərini gündəlik fəaliyyətlərində tətbiq edəcəklər. Beləliklə, ictimaiyyətə geniş, dolğun məlumatlar çatdıracaqlar.

Azərbaycan jurnalistikasında ixtisaslaşma prosesinə də toxunan Ə.Amaşov idmandan, iqtisadiyyatdan və digər sahələrdən yazan jurnalistlərlə yanaşı, bundan sonra hərbi mövzudan yazacaq jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksələcəyini, habelə gələcəkdə jurnalistika fakültəsində yeni kafedranın yaradılması məsələsinə baxılacağını söylədi. Mətbuat Şurasının sədri çıxışında jurnalistlərə azərbaycançılıq naminə, xalqımızın və dövlətimizin mənəvi dəyərlərinin qorunması yolunda fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra toplantı iştirakçıları keçirilən təlimlərə həsr olunan filmi maraqla izləyiblər.

Tədbir Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyevin çıxışı ilə davam edib. Müdafiə Nazirliyinin rəhbərliyi adından jurnalistləri və tədbir iştirakçılarını salamlayan general-mayor R.Əliyev təlimlərin səmərəli keçdiyini və müntəzəm izlədiyini bildirib. Layihənin məhz Müdafiə Nazirliyi ilə birgə keçirilməsini yüksək qiymətləndirən idarə rəisi hərbi jurnalistikanın formalaşması və bu sahədə ilk addım olması baxımından da belə tədbirlərin əhəmiyyətli olduğunu dəyərləndirib.

"Ordu cəmiyyətin bir hissəsidir", - deyə çıxışına davam edən general vurğulayıb ki, orduya xalqımızın övladları hərbi xidmət keçməyə - Vətən qarşısında müqəddəs borclarını yerinə yetirməyə gəlirlər. Ona görə də ordu haqqında cəmiyyətə doğru-dürüst informasiyaların çatdırılması sizin vətəndaşlıq mövqeyinizdən çox asılıdır. Xalqın orduya olan inamını artırmaq, gənc nəslin vətənpərvərlik tərbiyəsinə töhfə vermək məhz sizin peşə fəaliyyətinizdən asılıdır.

İdarə rəisi çıxışının sonunda jurnalistlərə gələcək fəaliyyətlərində uğurlar arzulayaraq, belə layihələrin həyata keçirilməsində Müdafiə Nazirliyinin daim KİV-ə dəstək olacağını bildirib.

Sonra BDU-nun professoru Cahangir Məmmədliyə söz verildi. Professor çıxışında belə aktual mövzulara həsr olunan tədbirlərin mütəmadi keçirilməsinə ehtiyacın olduğunu qeyd edərək layihəyə böyük dəstək verdiyinə görə Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin təşəkkürünü bildirib. "Təlimlərin gedişindən bəhs edən filmə baxanda qürur hissi keçirdim, ona görə ki, mən bu gün Azərbaycanımızın, dövlətçiliyimizin, Vətənimizin keşiyində dayanan bu jurnalistlərin müəllimi olmuşam".



BDU-nun jurnalistika fakültəsinin dekanı professor Ş.Vəliyev də çıxışında hərbi jurnalistika sahəsində ixtisaslaşma məsələsinin vacibliyini vurğulayıb və təlimlərə dəyər verərək "Hərbi gücümüzün sayəsində vətəndaşlıq mövqeyi nümayiş etdirdik" deyə çıxışını bitirib.

Daha sonra Müdafiə Nazirliyi Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı çıxış edərək bildirib ki, mülki-hərbçi münasibətlərinin qurulmasında belə tədbirlərin böyük əhəmiyyəti var. O qeyd edib ki, Müdafiə nazirinin əmrinə əsasən, layihənin təşkili ilə bağlı işçi qrupunun yaradılması ona imkan verib ki, təyin olunan zabitlərin iştirakı ilə ekstremal şəraitdə fəaliyyət göstərən jurnalistlər yetərincə nəzəri-təcrübi bilik və vərdişlər əldə ediblər.

Sonda çıxış edən layihənin rəhbəri "Dinc Dünya" Araşdırma Mərkəzinin İdarə heyətinin sədri Əlisafa Mehdiyev qeyd edib ki, həm keçmiş hərbi qulluqçu, həm də bu gün peşəkar jurnalist olduğuna görə təlimlərin mövzularının müəyyən edilməsində, mütəxəssislərin seçilməsində çətinliklərlə üzləşməyib. "Layihənin davamı olacaq. Məqsədimiz "Ekstremal situasiyalarda işləyən jurnalistlərin psixoloji və təcrübi öyrədilməsi" mövzusunu akademik səviyyəyə qədər çatdırmaqdır", - deyə Ə.Mehdiyev bildirib.

Toplantıda jurnalistlərə diplom, "Ekstremal jurnalistin əl kitabı" təqdim olunub və xatirə şəkli çəkilib.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Nəsillərə örnək

## Milli Qəhrəman Rasim İbrahimova həsr olunan tədbir keçirilib

***Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Bakı şəhəri İcra Hakimiyyəti Kino Xidməti İdarəsinin təşkilatçılığı ilə "Vətənpərvərlik kinosu günləri" çərçivəsində rejissor Yalçın Verdiyevin Milli Qəhrəman Rasim İbrahimova həsr olunan "Adadan başlanan yol" sənədli filminin təqdimatı keçirilib. Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmuş Azərbaycan övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət himni səsləndirilib.***






Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Ombudsman Aparatı, Pirallahı rayon İcra Hakimiyyəti, Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin nümayəndələri və Milli Qəhrəman Rasim İbrahimovun doğmaları, döyüş yoldaşları, həmçinin, Hərbi Liseyin zabit və kursant heyəti iştirak edib.

Millət vəkili Rauf Əliyev çıxışında qeyd edib ki, ordumuz 20 il əvvəlki ordu deyil. "Bu gün müasir texnikalarla təchiz edilmiş qüdrətli ordumuz var. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə orduda islahatlar keçirilir, Müdafiə Nazirliyinin məqsədyönlü tədbirləri cəmiyyətimizdə rəğbətlə qarşılanır.

Milli Qəhrəman Rasim İbrahimovdan bəhs edən millət vəkili "Bu gün Rasim kimi igid, qorxmaz, cəsur hərbçilərimiz yetərincədir", - dedi. "Rasim kimi qardaşlarımıza Allah rəhmət eləsin. O bu gün də yaşayır. Çünki onu bütün Azərbaycan xalqı, Azərbaycan gəncliyi yaşadır. Qəhrəmanın ömür yolu nəsillərə örnəkdir. Bu filmi ərsəyə gətirən insanlara dərin minnətdarlığımı bildirirəm. Belə tədbirlərə insan qürur hissi ilə gəlir. Ona görə ki, Azərbaycanın belə oğulları var və inanıram ki, Azərbaycan gec-tez öz torpaqlarını işğaldan azad edəcək. Rasimin valideynlərinə, yaxınlarına səbr diləyirəm və dərin minnətdarlığımı bildirirəm ki, belə vətənpərvər oğul böyüdüblər".

Sonra Kino Xidməti İdarəsinin rəisi Gültəkin Nəriman Rasim İbrahimovun döyüş yolundan danışdı:

- Rasim Vətən uğrunda canından keçən igid qəhrəmanlarımızdandır. O, 1962-ci ildə indi Pirallahı rayonuna daxil olan Çilov adasında neftçi ailəsində dünyaya göz açıb. Burada orta məktəbdə təhsil aldıqdan sonra C.Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Oxuduğu orta məktəb hazırda onun adını daşıyır. Almaniyada hərbi xidmət keçdikdən sonra Vətənə dönən Rasim Füzuli rayonunun cəsur oğulları ilə birlikdə könüllü özünümüdafiə taboru yaradıb və rayonun sərhədlərini erməni quldurlarından mərdliklə qoruyub. 1992-ci il iyunun 28-də Tuğ kəndi uğrunda döyüşə girən Rasim İbrahimovun dəstəsi onlarla düşməni məhv edib. Qeyri-bərabər döyüşdə mühasirəyə düşən döyüşçülərimizi cəsur komandir xilas etsə də, özü mühasirədən çıxa bilməyib. Rasim "Azərbaycan zabiti heç vaxt düşmənə tabe olmayacaq" deyərək özünü qumbara ilə partladıb. Ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Aparıcı tədbirin keçirilməsinə görə onlara yaxından köməklik göstərən, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kollektivinə minnətdarlığını bildirərək sözü şəxsi heyətlə iş üzrə müavin polkovnik Rəhim Səmədova verdi. Polkovnik tədbir iştirakçılarını salamladıqdan sonra liseyin rəhbərliyi və kollektivi adından yaradıcı heyətə təşəkkürünü bildirdi. "Milli Qəhrəmanlarımızın təbliği, onların döyüş yolundan bəhs edən filmlərin hazırlanması gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində böyük rol oynayır. Milli Qəhrəmanımız Rasim İbrahimovun anım tədbirinin Hərbi Liseydə keçirilməsi heç də təsadüfi deyil. Rasim liseyin 9 Milli Qəhrəmanından biridir. Qəhrəmanlar ölmürlər, əbədiyyət qazanırlar. Rasimin ruhu şaddır, çünki biz onu yaşadırıq. Kursantlarımızın, gələcəyimizin zabitlərinin qəlbində Rasim kimi qəhrəmanlarımız yaşayır və yaşayacaqdır". O, Milli Qəhrəmanın atasına müraciət edərək vurğuladı ki, hörmətli Səxavət müəllim, siz, sözün əsl mənasında, xoşbəxt atasız. Ona görə ki, Rasim kimi oğul böyütmüsünüz. Qəhrəmanlıq sözdə deyil, əməldə qazanılır. Rasim kimi oğullar daim bizim sıralarımızdadır.

Sonra Milli Qəhrəmanın atası Səxavət İbrahimov, döyüş yoldaşları və başqaları xatirələrini bölüşdülər.

Tədbirin sonunda hərbi vətənpərvərlik mahnıları səsləndirildi və "Adadan başlanan yol" sənədli filmi nümayiş olundu.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

***Oğuz eli Tovuzun igid oğulları həmişə Vətən torpaqlarını mərdliklə müdafiə ediblər. Böyük Vətən müharibəsi illərində tarixi qələbənin əldə edilməsində də belə igidlərin xidmətləri az olmayıb. Mərdan Musayev, Məstan Əliyev, Yusif Sadıqov böyük rəşadətlər göstərdiklərinə görə Sovet İttifaqı Qəhrəmanı kimi yüksək fəxri ada layiq görülüblər. Onlar xalqımızın qəhrəmanlıq tarixinə şanlı səhifələr yazıblar.***

# Fədakar oğullar

Ölkəmiz ikinci dəfə müstəqillik əldə etdikdən sonra Vətənimiz üzərinə düşmən hücumlarının dəf edilməsində də tovuzlular ata-babalarının qəhrəmanlıq yolunu davam etdirərək dönməzlik və rəşadət nümunələri göstəriblər. Naiq Nəsir oğlu Yusifov, Qasım Qara oğlu Rzayev ata-babalarımızdan fərqli olaraq müstəqil ölkəmizin qəhrəmanları oldular. Onların xidmətləri heç vaxt unudulmur. Vətən keşiyində dayanan təcrübəli zabit Emin Vəliyev bildirir ki, ataların yolu oğulların yoludur. "Bu gün ordumuzda qəhrəmanların layiqli davamçıları var".

Zabitin sözlərinə görə, hərbi xidmətə başlayan gənc əsgərlərə ilk növbədə hərbi hissənin döyüş yolu Milli Qəhrəmanları haqqında məlumat verilir. Onlar igidlərin davamçıları kimi xidmət etməyi qarşılarına məqsəd qoyurlar.

Qeyd etmək yerinə düşər ki, son illər ölkə rəhbərinin və Müdafiə Nazirliyinin orduya diqqət və qayğısı ilə hərbi xidmət üçün nümunəvi şərait yaradılıb. Ordumuzun müdafiə qüdrəti güclənib. Son vaxtlar düşmən təxribatlarının qarşısının qətiyyətlə alınması, onların böyük itkilər verməsi göstərir ki, Silahlı Qüvvələrimizin şəxsi heyətinin döyüş əzmi yüksəkdir.

"N" hərbi hissəsində zabit Sahib Şahverdiyev qeyd etdi ki, şəxsi heyət göstərilən etimadı doğrultmaq üçün səylərini əsirgəmir. Gənc döyüşçülərin vətənpərvərlik hissi çox yüksəkdir. "Ən müasir silahları, texnikaları hərəkətə gətirən vətənpərvər döyüşçülərdir. Qürurla demək olar ki, sıralarımızda xidmət edən hər kəs Vətəni üçün son nəfəsinədək mübarizə aparmağa hazırdır.

Kapitan Vasif Həsənovun komandiri olduğu bölüyün şəxsi heyəti düşmənlə təmas xəttində yerləşir. Şəxsi heyət döyüş tapşırıqlarını müntəzəm yerinə yetirir, düşmənin bütün hərəkətlərini dəqiqliklə izləyir və sayıqlıqlarını daha da artırır.

Ümummilli lider Heydər Əliyevin adını daşıyan AAHM-in yetirməsi olan Vasif Həsənov şərəfli zabit ömrü yaşayır. Taleyini ordu həyatı ilə bağlayan Vasif Vətənə xidmətdən böyük qürur hissi keçirdiyini bildirərək deyir:

- Cəbhə xəttində xidmət edən gənclərimizin mənəvi dəyərlərə, Vətənə, dövlətə sevgisi yüksəkdir. Hər kəsi bir amal düşündürür: tezliklə torpaqlarımızı işğaldan azad etmək!

Qarşı tərəflərə baxırıq. Çox da uzaq olmayan məsafələrdə düşmən səngərləridir. Ara-sıra atışmalar olur. Düşmən tərəfi atəşkəs rejimini pozmağa cəhd etsə də, igid əsgərlərimiz tərəfindən layiqli cavab alırlar.

Əsgər Təbriz Vəliyev döyüş növbətçiliyindədir. O, bildirir ki, xeyli vaxtdır ön xətdə xidmət edir. Təbriz xidmətdə nümunəvi olduğuna görə, Bərdə rayonunda yaşayan valideynlərinə hərbi hissə komandanlığı tərəfindən bu yaxınlarda təşəkkür məktubu göndərilib.

Növbəti həmsöhbətlərim Ülvi Cavadzadə, Mirsadiq Abbaszadə, Qubad Əsgərov, Elməddin Əsədov və başqaları da səngər həyatının özəlliklərindən danışdılar. Ata-babalarımızın əmanəti olan torpaqlarımızı fədakarlıqla qoruduqlarını qürurla söylədilər.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyədə PKK terrorçularının hücumu nəticəsində daha üç nəfər şəhid olub



Kürd Fəhlə Partiyasının (PKK) terrorçularının hücumları nəticəsində Türkiyədə bir polis və iki əsgər şəhid olub. Diyarbəkir vilayətinin Sur rayonunda terrorçuların məsciddən polis əməkdaşlarına açdıqları atəş nəticəsində polis zabiti şəhid olub. Şırnak vilayətinin Cize rayonunda isə terrorçuların hərbi maşına hücumu nəticəsində iki əsgər öldürülüb.

### Yaponiyanın "gözəgörünməz" qırıcı təyyarəsi gələn il səmaya qalxacaq



Gələn ilin əvvəllərində Yaponiya radardan yayınan qırıcı təyyarəsinin ilk sınaq uçuşlarına başlayacaq. On dörd metr uzunluğu olan təyyarə "Mitsubishi HeavyIndustries" şirkəti tərəfindən istehsal edilib və dəyəri təxminən 440 milyon ABŞ dollarıdır.

Əgər təyyarə sınaqdan uğurla keçərsə, "American F-22s" və "F-35s", Rusiyanın "PAK FA", Çinin "J-20" və "J-31", eləcə də Koreya və Hindistan qırıcılarından üstün sayılacaq.

### İranda yeni hərbi gəmi istifadəyə verilib



İran İslam Respublikasının milli istehsalı olan "Dəmavənd" hərbi gəmisi Hərbi Dəniz Qüvvələrinin istifadəsinə verilib. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən İran Hərbi Dəniz Qüvvələrinin komandanı, admiral Həbibulla Səyyari bildirib ki, yeni gəmi yalnız müdafiə məqsədləri üçün nəzərdə tutulub. O deyib ki, müasir dövrdə beynəlxalq terrorçuluqdan qorunmaq vacibdir. İran geniş su sərhədlərinə malikdir və bu sərhədlərin mühafizəsində yeni hərbi gəmi əhəmiyyətli rol oynayacaq. Tədbirdə İranın Müdafiə naziri Hüseyn Dehqan da iştirak edib.

### Kaliforniyada törədilən terror aktının məsuliyyətini İŞİD qruplaşması üzərinə götürüb




İŞİD qruplaşması Kaliforniyada baş verən hücumun məsuliyyətini öz üzərinə götürüb. ABŞ-ın Federal Təhqiqatlar Bürosunun Los-Anceles bölməsinin rəisi Devid Boudiç San-Bernardino şəhərində baş verən faciənin terror aktı kimi araşdırıldığını bildirib.

Xatırladaq ki, 28 yaşlı Səid Fərrux və 27 yaşlı Teşfin Malik ABŞ-ın Kaliforniya ştatındakı San-Bernardino şəhərində yerləşən məhdud imkanlı insanlara yardım mərkəzinə hücum edib. Baş verən silahlı insident nəticəsində azı 14 nəfər həlak olub, daha 21 nəfər isə yaralanıb. Yaralananların bir hissəsinin vəziyyəti ağırdır. Bu, ABŞ-da 2012-ci il dekabrın 14-dən bəri odlu silahdan istifadə edilməklə törədilən ən qanlı faciədir. O zaman 20 yaşlı Adam Lenza Konnektikut ştatındakı Nyutaun şəhərində yerləşən "Sendi huk" məktəbində 26 nəfəri güllələyərək qətlə yetirmişdi.

### Karib dənizində tapılan xəzinə 10 milyardlarla dollar məbləğində qiymətləndirilir



Kolumbiya sahillərində tapılan qaleonda on milyardlarla dollar dəyərində xəzinə daşınırmış. Söhbət kral V Filipp üçün nəzərdə tutulan İspaniya tacının xəzinəsindən gedir.

"San Xose" qaleonunun ispan kralına çatdıra bilmədiyi xəzinə keçən əsrin 80-ci illərində 5-10 milyard dollar həcmində qiymətləndirilirdi. Lakin ötən müddət ərzində inflyasiya və dolların kursunun dəyişməsi nəticəsində onun dəyəri qat-qat artıb.

Xatırladaq ki, 1708-ci ildə Britaniya gəmiləri ilə döyüşdən sonra Karib dənizində, Kartaxena şəhəri yaxınlığında batan qaleon Kolumbiya sahillərində aşkarlanıb. Tapıntı barədə Kolumbiya lideri Xuan Manuel Santos məlumat verib. Üç yüz il su altında qalan xəzinədə xeyli zümrüd, həmçinin, çox sayda qızıl və gümüş sikkələrin olduğu bildirilir.

### ABŞ-da dünyada ilk otel-sualtı qayıq tikilir



Səyyar sualtı oteldə bir gecə müsafir olmağın qiyməti üç min dollardan başlayacaq.

ABŞ-ın Florida ştatında, Ki Uest sahillərində sualtı qayıq prinsipi ilə otel tikintisinə başlanıb. "Planet Ocean Underwater Hotel" inşaat şirkətinin nümayəndəsi bildirib ki, müsafirlərə qonaq otağındakı pəncərələrdən gözəl mənzərə açılan, vanna otağı, böyük çarpayı, soyuducu və internetlə təchiz edilmiş 12 geniş nömrə, habelə konfrans zalı, restoran və baxış meydançası təklif olunur. Sualtı evin sakinləri dəniz heyvanlarını yemləyə və işıq şousuna baxa bilərlər. Qonaqlar təqribən doqquz metr dərinlikdə yerləşən otelə liftlə düşəcəklər.

Layihənin dizayneri Toni Uebb deyib: "Qasırğa və fırtına kimi təbiət hadisələri mehmanxanamız üçün qorxulu deyil. Otelimiz nəinki bu hadisələrdən suyun altında gizlənəcək, həm də avtomatik olaraq təhlükəsiz yerə üzəcək". Layihə müəllifləri qeyd edirlər ki, "Planet Ocean Underwater Hotel" otelinin müsafirləri sanki kosmik səyyahlar kimi sualtı aləmin gözəlliklərindən zövq ala biləcəklər. Bu zövq onlara bir gecədə üç-altı min dollara başa gələcək. Yaxın gələcəkdə Misir və Malayziyanın, Havay və Baham adalarının sahil sularında da dəniz otelləri açmaq planlaşdırılır. Otel-sualtı qayığın dizayn layihəsi 20 milyon dollara başa gəlib, bir blokun tikintisinə isə üç milyon dollar sərf olunub. Sualtı otellərin fəaliyyətindən əldə olunan gəlirin bir hissəsini "Biorock" Mərcan Riflərin Bərpası Fonduna keçirmək planlaşdırılır.

### On minlərlə tokiolu payız yarpaqlarını seyr etmək üçün İmperator sarayına gəlir



Dekabrın 5-də on minlərlə tokiolu payız yarpaqlarının gözəlliyini seyr etmək üçün Yaponiya paytaxtının mərkəzində yerləşən İmperator sarayına gəlib. Hər il dekabrın ilk günlərində İnunidori xiyabanı boyunca yerləşən 250-dən çox ağac payızın əlvan rənglərinə bürünür. Səhər saatlarında üç minə yaxın insan sıraya düzülərək İnuidori xiyabanına aparan yolun qapılarının açılmasını gözləyib. Cari fəsildə həmin xiyaban ilk ziyarətçiləri qəbul etmək üçün qapılarını açıb. Buradakı 60-a yaxın ağcaqayın ağacı payız fəslinə məxsus parlaq rənglərə bürünüb.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

## Tarix

# Qüdrətli dövlət xadimi, sərkərdə, şair

***Azərbaycan tarixində öz yeri və rolu olan şəxsiyyətlərdən biri də Şah İsmayıl Xətaidir. Şah İsmayıl Xətai qılıncı və qələmi ilə tariximizdə dərin iz buraxmış böyük şəxsiyyətdir. O, vahid Azərbaycan dövlətinin əsasını yaratmış, Azərbaycan türkcəsini dövlət dili səviyyəsinə qaldırmış, lirik və epik növlərdə gözəl əsərlər yaratmış hökmdar-şair olub.***

Şah İsmayıl Xətai 1487-ci ildə Ərdəbildə məşhur təriqət başçısı Şeyx Səfiəddinin nəslindən olan Şeyx Heydərin ailəsində dünyaya göz açıb. Ana babası Ağqoyunlular dövlətinin hökmdarı Uzun Həsən idi. Babası öləndən sonra Ağqoyunlu şahzadələri arasında hakimiyyət uğrunda savaş başlayıb. Atası Şeyx Heydər Şirvanşahlarla müharibədə öldürüləndən sonra anası Aləmşahbəyim və qardaşları ilə birlikdə İstəxr qalasına salınıb. İsmayıl həbsxanadan azad olunandan sonra Lahicanda görkəmli alim Şəmsəddin Lahicidən ərəb, fars dillərini öyrənib, müxtəlif elmlərə yiyələnib. Hələ uşaq ikən saray çəkişmələri nəticəsində ailəsini itirən İsmayılın at çapmaqda, qılınc oynatmaqda, igidlikdə, məclislərdə söz deməkdə, tayı-bərabəri yox idi. O, hakimiyyət uğrunda mübarizəyə kiçik yaşlarında başlayıb, atasından və qardaşı Sultanəlidən sonra qızılbaşlar hərəkatına (başlarına 12 zolaqlı qırmızı çalma qoyduqları üçün onları qızılbaşlar adlandırırdılar) başçılıq edib. 1499-cu ilin avqustunda Lahicandan Ərdəbilə yola düşəndə cəmi 12 yaşı varmış. Şərurda Ağqoyunlu hökmdarı Əlvənd Mirzəni məğlubiyyətə uğradandan sonra Təbrizdə özünü şah elan edib. Və beləliklə, Azərbaycan Səfəvilər dövlətinin əsası qoyulub. Şah İsmayıl hərbi yürüşlərini uğurla davam etdirərək, Azərbaycan dövlətinin sərhədlərini xeyli genişləndirib. Onun dövründə Səfəvilər dövləti Yaxın Şərqin qüdrətli dövlətlərindən birinə çevrilir. Səfəvi dövləti öz yüksəlişinin zirvə nöqtəsinə çatır. Onun ərazisi 2 milyon 800 min kvadrat kilometr idi.

Fəlsəfə elminin məşhur ideoloqlarından biri Karl Marks Şah İsmayıl Xətainin həyatını öyrəndikdən sonra heyrət və rəğbətlə bildirmişdi: "Şah İsmayıl tarixin yeganə sərkərdəsidir ki, 14 illik hakimiyyəti dövründə 14 ölkə fəth edib!"

Şah İsmayıl Xətai bədii yaradıcılığa yeniyetməlik dövründə başlayıb. Əsərlərinin çoxunu ana dilimizdə yazıb. O, "Dəhnamə" poemasını, "Nəsihətnamə" məsnəvisini qələmə alıb. Şairin "Divan"ına əruz vəznində yazılmış qəzəllərlə bərabər, ilk dəfə heca vəzni nümunələri - qoşma, gəraylı və bayatılar daxildir. O, təkcə yaradıcılığında deyil, həmçinin, dövlət sənədlərində də Azərbaycan dilinin işlənməsinə böyük önəm verirdi. Bununla bağlı görkəmli alim İ.P.Petruşevskinin bir fikrini xatırlatmaq istərdim. O yazırdı: "Aldığı tərbiyəyə və maraqlarına görə İsmayıl qızılbaş tayfaları və köçəri əyanları ilə sıx bağlı idi. O, yaxşı təhsil görmüşdü, şair və alimlərə himayədarlıq edirdi. Xətai təxəllüsü götürmüş İsmayıl öz dövrünün tanınmış şairi idi, özündən sonra şeirlər toplusu (divan) qoyub getmişdir". Şah İsmayılın müasiri olmuş



> *"Əziz nəslim, Allah tərəfindən mənim üçün bəxş edilmiş qısa ömürdə sizin üçün əlimdən gələni etdim. Öz qılıncımın gücü ilə tikə-tikə bölünmüş Vətənimizi birləşdirməyə çalışdım. Mənim bütün döyüşlərimin əsas qayəsi bu idi. Doğma torpağın bir parçasını, doğma dildə deyilmiş bir sözü qızıldan üstün tutdum. Vətənin və doğma dilin daim var olması üçün bacardığım hər şeyi etdim".*
>
> *Şah İsmayıl Xətai*

Osmanlı sultanı I Səlim yalnız fars dilində yazdığı halda, İsmayıl Azərbaycan dilində yazıb yaradıb. Təkcə bu fakt bəzi Qərbi Avropa tədqiqatçılarının İsmayılı İran vətənpərvəri kimi qələmə vermək cəhdlərinin nə qədər cəfəng olduğunu göstərir. Azərbaycan dili İsmayılın ana dili idi, onun və ailəsinin Azərbaycan köçərilərinə bağlılığı güclü idi. Onun səyləri sayəsində Azərbaycan dili nəinki fars dilinin təsirindən qurtardı, həm də sonrakı yüzilliklər boyu daha da inkişaf etdirildi. Artıq Azərbaycan şairlərinin başqa dillərdə yazıb-yaratması ənənəsinə birdəfəlik son qoyuldu. Müasirlərinin dediyinə görə, Şərq miniatür sənətinin inkişafının ən parlaq dövrü məhz həmin dövrə təsadüf edir. Elm, sənət xiridarı olan Xətainin sarayında yaradıcılıq üçün əlverişli şərait yaranmışdı. Sarayda diqqət və qayğı ilə əhatə olunmuş böyük rəssam Behzad, habelə bir çox digər istedadlı heykəltəraş, xəttat, musiqiçi yaşayırdı. Hətta döyüş ərəfəsində belə Şah İsmayıl ilk növbədə, istedadlı rəssam və alimlərə qayğı göstərir, onları qorumağı əmr edirdi.

Şah İsmayılın bütün fəaliyyəti kimi, dini dözümlülüyü (xüsusən də ölkənin daxilində olan xristianlara münasibətdə), eləcə də Avropanın xristian ölkələri ilə geniş diplomatik əlaqələr qurması onu sülhün, firavanlığın qeydinə qalan müdrik hökmdar və böyük diplomat kimi səciyyələndirir.

Səfəvilər dövlətinin daha bir səciyyəvi xüsusiyyəti dövlətçilik ənənələrinin, eləcə də tolerantlığın, çoxmədəniyyətli, çoxmillətli dövlət ənənələrinin varisliyidir. Səfəvi imperiyasında yaşayan xalqların dilləri bu günə qədər qorunub saxlanmışdır.

Şah İsmayıl şair və filosof kimi keçmişin mədəni və mənəvi irsinə çox həssaslıqla yanaşırdı. O, qədim kitab kolleksiyalarının saxlanıldığı, xəttatların, rəssamların, nəqqaşların, kitabxanaların yaradılmasına xüsusi diqqət yetirirdi. Təbriz şəhərində çox qiymətli kitabların, əlyazmaların toplandığı Səfəvi saray kitabxanasının yaradılması barədə Şah İsmayılın imzaladığı fərman bunun bariz nümunəsidir.

Şah İsmayılın özünə "Xətai" təxəllüsünü götürməsinin səbəbi dəqiq məlum deyil. Bəziləri hesab edir ki, ləqəbin kökü "xəta" deyil, "xətay"dır. Xətay isə türk tayfalarından birinin adı olub. Digər rəvayətə görə, Şah İsmayıl: "Mən doğulanda dünyaya yox, xətalar içinə gəlmişəm. Lakin həmişə mənə bir hikmətli səs deyir ki, bu xətaların hamısından çıxacaqsan. O xəta sözü taleyimdə yox, gələcək ləqəbimdə qalacaq", - deyirdi. Başqa rəvayətə görə isə, Şah İsmayıl İmam Hüseynin səhabəsi Hürrün qəbrini açmağı əmr edir. Şah görür ki, Hürrün nəşi çürüməyib və İmam Hüseynin onun yarasına bağladığı sarıq hələ də təzədir. O, sarğını götürmək istəyəndə yaradan qan axır. Şah etdiyi xətadan peşman olur və özünə "Xətai" ləqəbi götürür.

Hətta bununla bağlı Xətainin məşhur bir qəzəli də var:

*Şah Xətai seyrə çıxdı,*
*açdı Hürrün qəbrini,*
*Bar ilahi, əvf qıl ki,*
*tövbəkaram doğrusu...*

Lakin bütün bunlara baxmayaraq, hələ də heç bir versiya sübuta yetirilməyib və Şahın təxəllüsünün sirri açılmamış qalır.

Şair ruhlu qüdrətli hökmdar 1524-cü ildə 37 yaşında vəfat edib.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## General Səməd bəy Mehmandarov - 160

# Əbədiləşən sərkərdə

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, dekabrın 8-də Cəmşid Naxçıvanski adına Hərbi Liseydə görkəmli hərbi xadim, tam artilleriya generalı Səməd bəy Mehmandarovun 160 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Sərkərdənin ömür yoluna həsr olunmuş tədbirə liseyin zabit-müəllim və kursant heyəti toplaşmışdı.***






Tədbiri polkovnik Rəhim Səmədov açıq elan etdi. Ümummilli lider Heydər Əliyevin, tam artilleriya generalı S.Mehmandarovun və Vətənimizin azadlığı uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Polkovnik çıxışında bildirdi ki, görkəmli sərkərdələr sırasında tam artilleriya generalı Səməd bəy Mehmandarovun xüsusi yeri vardır. Onun hərbi fəaliyyəti dövlətçilik tariximizin şanlı səhifələrindən biridir. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri olan Səməd bəy Mehmandarovun 160 illik yubiley tədbirləri hər yerdə olduğu kimi, Hərbi Liseydə də böyük təntənə ilə qeyd edilir. Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri olan generalın yubileyinin dövlət səviyyəsində keçirilməsi ölkəmizdə hərb elminə verilən yüksək dəyərin bariz nümunəsidir.

Sonra ehtiyatda olan polkovnik tarix elmləri doktoru Mehman Süleymanov rus-yapon və Birinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən, Cümhuriyyət ordusunun formalaşmasında əvəzsiz xidmətləri olan sərkərdənin fəaliyyətindən geniş bəhs etdi.

Tarixçi alim Nuru Məmmədov da görkəmli sərkərdənin döyüş yolundan ətraflı danışdı.

Çıxış edənlər tam artilleriya generalı S.Mehmandarovun Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu sahəsindəki xidmətlərindən danışaraq müasirlərinin onun haqqındakı xatirələrini bölüşdülər. Xatirələrdə qeyd olunur ki, Səməd bəy öz zabit qürurunu hər zaman qoruyub saxlayıb. Vəzifə məsuliyyətini heç zaman itirməyib. O, bu çətin peşəni ürəkdən sevib, ona sadiq olub və başqalarına da heyranedici bir çalışqanlıqla bu hissləri aşılayıb.

Müdafiə Nazirliyi Nəzdində Sənədli və Tədris Filmləri Kinostudiyasının görkəmli hərbi xadim haqqında hazırladığı qısametrajlı film nümayiş olundu.

Sonda tədbir iştirakçıları Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının təqdim etdiyi hərbi vətənpərvərlik mahnılarını böyük həvəslə dinlədilər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## İdman

### Azərbaycan güləşçisi Rusiyada xatirə turnirində bürünc medal qazanıb



Moskvada Ümumrusiya Uşaq İdmanı Federasiyasının ilk prezidenti və əməkdar məşqçi Şevalye Nusuyevin xatirəsinə həsr olunmuş beynəlxalq güləş turniri keçirilir.

İlk yarış günündə mükafatçılar arasında Azərbaycan güləşçisi Mahmud Məhəmmədov da yer alıb. Turnirdə 61 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz turnirin bürünc medalına sahib olub. O, üçüncü yer uğrunda görüşdə rusiyalı rəqibi İmam Qadjiyevdən güclü olub.

Artıq ənənəvi olaraq hər il keçirilən yarışda Rusiya idmançıları yanaşı, Azərbaycan, Əfqanıstan, Belarus, Qazaxıstan, Moldova, Tacikistan, Özbəkistan və Ukraynadan 300 güləşçi birincilik uğrunda mübarizə aparır.

### "Azərreyl" voleybol komandası "Telekom"a qalib gəlib



Dekabrın 5-də qadın voleybolçular arasında Azərbaycan Super Liqasında on üçüncü tur çərçivəsində bir oyun keçirilib.

Azərbaycan Voleybol Mərkəzində "Azərreyl" komandası "Telekom"u qəbul edib.

Çempionlar Liqası yarışlarında mübarizə aparan təmsilçimizin duelindən "Azərreyl" 3:0 hesablı qələbə ilə ayrılıb.

"Telekom" 14 xalla turnir cədvəlinin birinci pilləsində yer alıb. "Lokomotiv" və "Azərreyl" komandaları isə 13 xalla 2-3-cü pillədə qərarlaşıblar.

### Kikboksçumuz Pərviz Abdullayev "Glory World Series" turnirinin qalibi olub



Azərbaycanı və "Qəbələ" idman klubunu beynəlxalq arenada uğurla təmsil edən kikboksçumuz Pərviz Abdullayev ölkə tarixində ilk dəfə olaraq bu idman növü üzrə ən mötəbər yarış hesab olunan "Glory World Series"də rinqə çıxıb və qələbə qazanıb.

Hollandiyanın paytaxtı Amsterdamda keçirilən döyüşdə Pərviz Abdullayev mərakeşli Aziz Kallahla üz-üzə gəlib. Üç raund davam edən qarşılaşmanın sonunda hakimlər yekdilliklə Pərviz Abdullayevin xeyrinə qərar veriblər.

Beşqat dünya çempionu olan Pərviz Abdullayev 45 peşəkar döyüş keçirib və 41 dəfə qalib gəlib.

### Azərbaycan şahmatçıları blits və rapid üzrə Avropa çempionatında iştirak edəcəklər




Dekabrın 18-dən 20-dək Minskdə şahmatın blits və rapid növləri üzrə Avropa çempionatı keçiriləcək.

Blits üzrə çempionatda iştirak etmək üçün 573 şahmatçı, o cümlədən 75 qrossmeyster müraciət edib. Azərbaycanı qrossmeysterlər Şəhriyar Məmmədyarov (2784), Qədir Hüseynov (2709), Rauf Məmmədov (2667), habelə Elnur Əliyev (2228) və ustalığa namizəd Rüstəm Bünyadov (2105) təmsil edəcəklər. Blits-turnir dekabrın 18-də keçiriləcək.

Rapid üzrə qitə çempionatına 690 oyunçu, o cümlədən 84 qrossmeyster qatılıb. Rapid turniri dekabrın 19-20-də keçiriləcək.

Yarışların açılış mərasimində Beynəlxalq Şahmat Federasiyasının Prezidenti Kirsan İlyumjinov iştirak edəcək.

### Boksçularımız Rusiyada dünya kuboku yarışlarında iştirak edəcəklər



Dekabrın 17-dən 20-dək Rusiyanın Xantı-Mansiysk şəhərində Sibirdə ilk dəfə nefti kəşf edən həmyerlimiz Fərman Salmanovun xatirəsinə həsr olunmuş boks üzrə neft ölkələrinin dünya kuboku yarışları keçiriləcək.

13-cü dəfə təşkil olunacaq turnirdə 20 ölkədən 120 idmançı mübarizə aparacaq.

Dünya kuboku yarışlarında Rusiya ilə yanaşı, Azərbaycan, Fransa, Almaniya, Finlandiya, Serbiya, Bolqarıstan, Polşa, Ukrayna, Moldova, Litva, Belarus, İsveç, Çin, Qazaxıstan və digər ölkələrdən boksçular iştirak edəcək.

Turnirin mükafat fondu isə 2 milyon 140 min rubl təşkil edir.

**AZƏRTAC-ın**
**materialları əsasında**

## Fiziki hazırlıq

# İdman vərdişlərini artırmaq zəruridir

***Səhər-səhər hərbi hissənin ərazisinə daxil olanda ilk baxışdan idman şəhərciyində məşq edən şəxsi heyət diqqətimi cəlb etdi. Onlar müxtəlif idman qurğularında məşq edirdilər. Əsgərlər kapitan Sərxan İmanovun rəhbərliyi altında məşğələ keçir, yorulmaq bilmədən fiziki hazırlıqlarını artırırdılar.***



İdman qurğularında müxtəlif tapşırıqları yerinə yetirən əsgərlərə yaxınlaşdıq. Bizi burada baş leytenant Abbas Maqsudov qarşılayıb bildirdi ki, əsgərlər həm fiziki hazırlıq məşğələlərində, həm də təlimlərdə fəal iştirak edirlər. Bacarığı və peşəkarlığı yüksək olan əsgərlər asudə vaxtlarında idman şəhərciyinə gəlib məşq edirlər. Komandir kimi çalışıram ki, tabeliyimdə olan şəxsi heyətin fiziki hazırlığı müasir tələblərə cavab versin.

Baş leytenant Abbas Maqsudov söhbətinə davam edərək həm fiziki hazırlıq məşğələsində, həm də xidmətin başqa sahələrində fərqlənənlərdən gizir Elçin Muradov, çavuş Bəbir Behbudov, əsgərlərdən Vüsal Hüseynov, Taleh Əkbərli, Fərid Cəfərov, Nahid Hüseynov, İnqilab İsmayılov və Nurlan Qarayevin adlarını çəkdi. Onların xidmətindən razılıq etdi. "Bu əsgərlər həmişə əmr və tapşırıqların öhdəsindən bacarıqla gəlir, xidməti vəzifələrini layiqincə yerinə yetirirlər", - dedi.

- Məşğələlərin hər dəqiqəsi səmərəli keçir. Dərslərdə fəal iştirak edərək daim təcrübəmizi artırırıq, - deyə çavuş Bəbir Behbudov sözə başladı. - Fiziki hazırlığımız yüksək olanda özümüzü təlimlərdə daha inamlı hiss edirik. Tapşırıqları daha cəld, daha çevik yerinə yetiririk.

Söhbətimiz başa çatandan sonra şəxsi heyətin fiziki hazırlıq məşğələsini diqqətlə izlədik. Şəxsi heyət yorulmaq bilmədən idman qurğularında müxtəlif tapşırıqları yerinə yetirirlər. Onların cəld və çevik hərəkətlərindən peşəkar olduqları aydın görsənirdi. Düşünürəm ki, hazırda hərbi hissənin idman şəhərciyində təcrübəsini artıran əsgərlər sabah döyüş meydanlarında qələbə qazanacaqlar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

## Xarici hərbi xronika

### Finlandiya "Qvozdika" artilleriya sisteminin əvəzini axtarır

Finlandiyanın Silahlı Qüvvələri Rusiya istehsallı qaubitsanı əvəz etmək üçün yeni özüyeriyən artilleriya sistemini əldə etmək niyyətindədir.

Verilən məlumata görə, "Qvozdika"ların əvəzinə, 155 mm kalibrli qaubitsaların alınması mümkündür. Onların əldə edilməsinə 100 milyon avro dəyərində vəsait ayrılacaq.

### Birgə silah və döyüş sursatı hazırlamaq təklifi

Hindistan hökuməti Tailandla birlikdə müxtəlif silah növlərinin - döyüş sursatı və partlayıcı maddələrdən tutmuş atıcı silahlara kimi istehsalını təklif edib. Mənbədən verilən məlumata görə, Hindistanın Xarici İşlər Nazirliyində hazırda bu mövzu ətrafında ciddi müzakirələr aparılır.

### Hindistan HDQ-si üçün elektromaqnit katapultu

ABŞ hökuməti Hindistana elektromaqnit katapultunun satılması üçün yaşıl işıq yandırıb. Katapult "General Atomiks" şirkəti tərəfindən Kaliforniya ştatının San-Diyeqo ərazisində hazırlanır. Hindistan öz aviadaşıyıcılarının döyüş keyfiyyətini artırmaq üçün ən müasir texnologiyalardan yararlanmağı arzulayır.

### Kuba iki ədəd Mi-17 helikopteri sifariş edib

Bu yaxınlarda verilən məlumata görə, Kazan helikopter zavodu Kuba ilə əməkdaşlıq dövründə bu ölkəyə müxtəlif helikopterlər təqdim edib. Onlar Mi-4, Mi-14, Mi-817 maşınlarıdır. Ümumilikdə bu ölkəyə 60 helokopter ixrac edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Kursant Həsənov Nicat Elbəyi oğluna 2013-cü ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor müavini**
polkovnik-leytenant
Arif PƏNAHOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 1006
Nüsxə 4710